







# Əsl soyqırımını ermənilər törədib

*Hər il 24 aprel tarixində dünya erməni lobbisinin dəstəyi ilə uydurma "erməni soyqırımı" iddialarına səhnə olur. Bu iddialar heç bir beynəlxalq məhkəmə qərarı ilə təsdiqlənmədiyi halda, yüz minlərlə günahsız türk və müsəlman əhalisinin erməni silahlı birləşmələri tərəfindən vəhşicəsinə qətlə yetirilməsi əsl soyqırımı faktları olaraq tarixə yazılıb. Tarixi sənədlər, arxiv materialları və beynəlxalq araşdırmalar da sübut edir ki, XX əsrdə Cənubi Qafqazda və Anadoluda əsl soyqırımı elə erməni silahlı dəstələri tərəfindən törədilib.*

1887-ci ildə Cenevrədə qurulan "Hnçak" partiyası və 1890-cı ildə Tiflisdə yaradılan "Daşnaksütyun" partiyası "Böyük Ermənistan" ideyasını reallaşdırmaq üçün silahlı mübarizəyə başlayıblar. Bu təşkilatlar türklərin yaşadığı torpaqları erməni dövləti naminə etnik təmizləmə siyasəti ilə ələ keçirməyə çalışıblar. Bu məqsədlə Osmanlı və Rusiya imperiyalarında silahlı qiyamlar, kütləvi terror aktları və qırğınlar həyata keçiriblər.

Erməni silahlı dəstələri tərəfindən 1894-1896-cı illərdə Sasun, Zeytun və Bitlis bölgələrində törədilən üsyanlar zamanı minlərlə türk kəndlisi qətlə yetirilib. 1909-cu ildə Adana vilayətində erməni üsyançıları tərəfindən 20 mindən çox türk-müsəlman əhalisi öldürülüb. Bütün bu hadisələr Britaniya arxivlərində, Osmanlı sənədlərində və fransız diplomatlarının hesabatlarında təsbit edilib.

Ermənilər Birinci Dünya müharibəsində Osmanlı dövlətinə qarşı Rusiya ordusu ilə birləşərək Anadolu kəndlərində türkləri və kürdləri qətliama məruz qoyublar. Osmanlı arxivlərində erməni silahlılarının Van, Erzurum, Qars və Ağrı bölgələrində törətdiyi vəhşiliklərlə bağlı yüzlərlə sənəd mövcuddur.

"Ermənilər tərəfindən törədilən soyqırımı aktları təkcə bir millətin yox edilməsi deyil, həm də bütöv bir mədəniyyətin silinməsi məqsədi daşıyıb. 24 aprel tarixinin "erməni soyqırımı" kimi deyil, əslində türk və müsəlman xalqlarına qarşı həyata keçirilmiş soyqırımların ifşası günü kimi xatırlanması üçün tarixçilər, alimlər və ziyalılar səs qaldırmalıdır. Çünki əsl soyqırımı törədən erməni silahlı dəstələri olmuşdur - və bu, təkcə tarixi həqiqət deyil, həm də ədalətin tələbidir". Bu fikri İğdır vilayətinin Hakmehmet kəndində 1919-cu ildə erməni quldur dəstələri tərəfindən qətlə yetirilmiş onlarla dinc sakinin xatirəsinə həsr olunmuş anım mərasimində **Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyasının (TADDEF) sədr müavini Serdar Ünsal** vurğulayıb.

"1915-ci il hadisələri ilə bağlı yalanların növbəti ildönümündə ermənilər yenə də antitürk isteriyasını qızışdırmağa çalışacaqlar. Ancaq həqiqət ondan ibarətdir ki, məhz ermənilər türklərə qarşı soyqırımı törədiblər. İğdırın kəndlərində, o cümlədən Hakmehmet, Akmamet, Oba, Tuzluca, Gedikli, Koçkıran, Yaycı, Kazancı kəndlərindəki kütləvi məzarlıqlar minlərlə İğdır sakininin faciəsinin şahididir. Soyqırımı faktlarını görmək istəyən hər kəsi 1919-1920-ci illərdə ermənilərin qanlı cinayətlər törətdiyi İğdıra dəvət edirəm. Təəssüf ki, eyni vəhşiliklər sonralar Xocalıda da təkrarlandı. Bu, ermənilərin soyqırımı xalqı olduğunu göstərir. Onlar qondarma soyqırımı yalanları ilə ictimaiyyəti aldatmağa, çaşdırmağa çalışırlar. Biz buradan azad dünyaya səslənirik. Əsl soyqırımı görmək istəyirsinizsə, Şərqi Anadolu bölgəsinə və İğdıra gəlin, Xocalıya gedin, orada əsl erməni soyqırımını görəcəksiniz".

Xatırladıb ki, Hakmehmet, Akmamet və Oba kəndlərində aparılan qazıntılar nəticəsində kütləvi məzarlıqlar aşkar edilib və erməni cinayətlərinin qurbanlarına abidələr ucaldılıb.

Ermənilərin Şərqi Anadolu bölgəsində törətdikləri qətliamın göz qabağında olduğunu deyən **Muxtarlar Dərnəyinin rəhbəri Mikayıl Ud** babasının Hakmehmet kəndində erməni qırğınına necə məruz qaldıqlarını danışıb: "Babam deyirdi ki, 1919-cu ildə bir gecə erməni quldur dəstələri kəndimizi mühasirəyə aldılar. Bütün kənd camaatını bir yerə toplayaraq 13 metr dərinlikdə olan su quyusuna tək-tək güllələyərək atdılar. Qonşumuz Hacı Abbas Günəş o vaxt 8-9 yaşında idi. Onun gözünün qabağında atası və qardaşlarının başı kəsilərək quyuya atıldı. Bu heç vaxt unudulmayan bir dəhşətdir".

Anım mərasimində çıxış edən İğdır Universitetinin müəllimi Sözer Akyıldırım deyib ki, ermənilər hər il aprelin 24-ü gələndə dünya ictimai rəyini ayağa qaldırırlar. Halbuki erməni soyqırımı böyük bir yalandır. "Mən buradan demək istəyirəm ki, 1945-ci ildə Yaponiyaya atılan atom bombasında yüz əlli min adamın öldüyünü fərz etsək, o zaman Osmanlı imperiyasının əlində iki milyon insanı qırıb öldürə biləcək kosmik silahlarmı vardı? Əgər onları öldürübsə, onların kütləvi məzarlığı haradadır? Ermənilər əllərində olan arxiv sənədlərini açıqlasınlar. Kütləvi məzarlıqlar varsa, göstərsinlər. Gəlin, qazıb öyrənək. İsrailin əlində olan bütün texnoloji silahlardan istifadə etdiyi və altmış min insanın öldürüldüyü Qəzzada son əməliyyatlara nəzər saldıqda, 1915-ci ildə iki milyon erməninin öldürüldüyü iddiası tamamilə cəfəngiyyatdır".

Ermənilərin insanları aldadaraq məscidin həyətinə toplayıb, sonra da kütləvi şəkildə qətlə yetirdiklərini vurğulayan **81 yaşlı Peri Ud** deyib: "Erməni əsgərləri camaata xəbər göndərib ki, gəlin, danışaq və razılığa gələk. Lakin gələnlərin hamısını vəhşicəsinə qətlə yetirərək su quyusuna doldurublar. Mənim 7 əmim də orada ölüb. Atamın qardaşları üçün ağlamaqdan gözləri kor oldu. Dünya burada ikiüzlülük edir, faktları əks etdirmir. Qətliamı törədənlər də onlardır. Türk milləti hara gedirsə, oraya sülh, əmin-amanlıq gətirir. Bu, oradakı insanların sülh içində yaşamasına səbəb olur. Türk milləti heç vaxt qadına, qıza, günahsız insanlara toxunmaz. Biz deyirik ki, sübutumuz burada, su quyusu buradadır. Buradan götürülən şəhidlərimizin cənazələri hazırda Qılınclar Memorial Muzeyindədir. Hətta yeddi yaşlı uşağın başını da kəsiblər; bunu edənlər ermənilər olub".

Yerli sakinlərin sözlərinə görə, 1919-cu ildə erməni quldur dəstələrinin üzvləri Hakmehmet kəndinin bütün kişilərini güllələyib və süngülərlə qətlə yetiriblər, cəsədləri isə 13 metr dərinliyindəki quyuya atıblar. Ermənilər sonda bir öküz vurub onu da quyuya atıblar ki, insanlar oradan çıxa bilməsin.

Bu qətliamı dünya ictimaiyyətinə çatdırmaq üçün 2009-cu ildə quyunun açılmasına qərar verilib. Bütün dünya bunun şahidi olub. BBC televiziyası, TRT televiziyası, xarici müxbirlər və tarixçilərin gözünün önündə quyu açılıb. Quyunun 12-13 metr dərinliyində şəhidlərin sümükləri aşkarlanıb və dünya ictimaiyyətinə nümayiş etdirilib.

Qazıntılar nəticəsində erməni quldur dəstələrinin qətlə yetirdiyi 83 nəfərdən 51-nin qalıqları tapılıb. Qalanların aqibəti bu günədək naməlum olaraq qalır.

Beləliklə, erməni millətçilərinin tarix boyunca türk-müsəlman xalqlarına qarşı həyata keçirdiyi etnik təmizləmə siyasəti və soyqırımı aktları sənədlərlə və qazıntılarla sübut olunub.

"24 aprel" tarixinin saxta ittihamlar əsasında gündəmə gətirilməsi də beynəlxalq ikili standartların məhsuludur. Tarixi ədalətin bərpası üçün dünya ictimaiyyəti yalnız 1919-cu il hadisələrinə deyil, 1905, 1918, 1948 və 1992-ci illərdə törədilmiş gerçək soyqırımlara da qiymət verməlidir.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**

Respublika .- 2025.- 24 aprel, № 81.- S.13.